**Əlavələr**

**Azərbaycan dili**

**III sinif üçün diaqnostik qiymətləndirmə vasitəsi**

**II sinfin sonunda gözlənilən nəticələr**

- Dinlədiyi fikri anladığını nümayiş etdirir;
- Şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir;
- Qarşılaşdığı sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir;
- Oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir;
- Yazı bacarıqlarına yiyələndiyini nümayiş etdirir;
- Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.

**Meyarlar:**

1. Hüsnxət normalarına riayət etməklə imla yazır.
2. Xüsusi isimləri seçir.
3. Məqsədinə görə cümləni növlərinə ayırır.
4. Sözlərin tələffüzü və yazılışını fərqləndirir.
5. Əlamət bildirən sözləri sual verməklə seçir.
6. Sözlərin tələffüzü və yazılışını fərqləndirir.
7. Sözlərdə buraxılmış hərfləri artırır.
8. Sözlərdə ahəng qanununu müəyyən edir.
9. Hərəkət bildirən sözləri sual verməklə seçir.
10. Yaxınmənalı sözləri seçir.
11. Mürəkkəb sözləri seçir.
12. Söz birləşmələrini seçir.
13. Sözün kökünü müəyyən edir.
14. Mətnin ideyasını müıəyyənləşdirir.
15. Mətndəki fikri ümumiləşdirir.
16. Mətndəki hadisənin başvermə səbəbini aydınlaşdırır.
17. Mətndən əksmənalı sözləri seçir.
18. Mətndə buraxılmış boşluğa lazım olan sözləri əlavə edir.
19. Mətndə verilmiş bəzi sözləri yaxınmənalı sözlərlə əvəz edir.
20. Mətnlə bağlı sualı cavablandırır.

**Sual və tapşırıqlar:**

**1.**

**İmla**______________________________________________________________

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

**2) Sözlərdən neçəsi böyük hərflə yazılmalıdır?**

***şəki, xəzər, kompüter, camaat, kür, səlim, masa, ana***

A) 4 B) 5 C) 6 D) 3

**3) Verilmiş cümlənin sonunda hansı işarə qoyulmalıdır?**

***Dövlət himnimizin sözləri kimə məxsusdur***

A) ; B) ? C) ! D) .

**4) Sözün düzgün yazılışı hansıdır?**

A) baxtavar B) bəxdəvər C) baxtəvər D) bəxtəvər

**5) Hansı cərgədəki bütün sözlər əlamət bildirir?**

A) dadlı, çəpər, tələbə B) dəcəllik, sakitlik, qaranlıq C) iri , böyük, şair D) bahalı, nazik, qara

**6) Neçə söz tələffüz zamanı dəyişir?** ***qanad, bıçaq, pələng, düzgün, payız, kombinat***

A) 4 B) 5 C) 2 D) 6

**7) Bu sözlərə hansı sait artırılmalıdır?** ***p...midor, p...rtret, pr...qram, pr...blem, k...nfet***

A) a B) o C) u D)ö

**8) Ahəng qanununa tabe olmayan bəndi tapın.**

A) yazıçı.əkin.dəvə B) işıq,quşüzümü,alim

C) çiçək.məktəb,külək D) həyət,çanta.qələm

**9) Verilmiş cümlədə neçə hərəkət bildirən söz var?**

***Uşaqlar həyətə yığışıb Gülşəni gözləyirdilər.***

A) yoxdur B) 2 C) 3 D) 1

**10) Yaxınmənalı sözlər cərgəsini göstərin.**

A) ağ, qara, boz B) boğaz, ayaq, qaş C) böyük, iri, nəhəng D) qoca, cavan, uzun

**11) Verilmiş sözlərdən neçəsi mürəkkəbdir?**

***boşqab, bağban, xəstəxana, yarımada, güllü, gülərüz, şəhərdəkilər***

A) 2 B) 3 C) 4 D) 5

**12) Hansı söz birləşməsidir?**

A) bizim sinif B) günəbaxan C) güllər açdı D) gülərüz

**13) Hansı sözün tərkibində hərəkət bildirən söz var?**
A) kitabxana B) qəhrəmanlıq C) yalançının D) yazıçılar

**Mətni oxuyun və sualları cavablandırın.**

**Zülmün nəticəsi**

Zalım bir hakim zorla yoxsulların odununu ucuz qiymətə alıb, güclə varlılara baha qiymətə satarmış. Bir nəfər bu haqsızlığa dözməyib deyir:

— Yoxsul insanlara belə ______ etmə. Onların göylərə yüksələn ah-naləsindən, bəd dualarından qorx.

Hakim bunu eşitdikdə qəzəblənib həmin adamı cəzalandırdı. Bir gecə mətbəxdən qığılcım keçib hakimin odun anbarına düşdü. Hakimin bütün var-dövləti yandı. Onun gözəl sarayı yanıb külə döndü. Təsadüfən hakimin cəzalandırdığı şəxs oradan keçirdi. Gördü ki, hakim yaxın adamlarına deyir:

— Bilmirəm, bu od mənim sarayıma haradan düşdü?

Həmin adam dedi:

— Yoxsulların ürəyindən yüksələn ahın odundan.

**14. Hansı atalar sözü mətnin ideya-məzmununa daha uyğundur?**
A) Zülm ilə abad olan, ədalət ilə bərbad olar. B) Yaman günün ömrü az olar.
C) Odu söndürüb, külü ilə oynayır. D) Ağ gün ağardar, qara gün qaraldar.

**15) Zalım hakim yoxsulları necə incidirdi?**
A) Onların pulunu əlindən alırdı. B) Yoxsulları oz tarlasında işlədirdi.
C) Zorla yoxsulların odununu ucuz qiymətə alırdı. D) Yoxsulların odununu oğurlayırdı.

**16) Hakimin var-dövləti nə üçün puç oldu?**
A) Yoxsullar onun anbarını yandırdı. B) Odun anbarına mətbəxdən qığılcım düşdü.
C) Odun anbarına ildırım düşdü və o yandı. D) Oğrular onun bütün var-dövlətini apardılar.

**17) Verilmiş atalar sözündə əksmənalı sözləri seçin.**
***Yaxşılığa yaxşılıq, hər kişinin işidir,***
***Yamanlığa yaxşılıq, ər kişinin işidir.***
A) hər, ər B) kişi, ər C) yaxşılıq, yamanlıq D) hər, iş

**18) Boz zolaqda hansı söz olmalıdır?**
A) zülm B) zalım C) kömək D) yardım

**19) Mətnin sonuncu cümləsində altından xətt çəkilmiş sözü uyğun olan sözlə əvəz edin.**
A) imkanlı B) kasıb C) varlı D) heç bir sözlə əvəz etmək olmaz

**20) Hakimin hərəkətlərinə münasibət bildirin.**